




# Çanaqqala dastanı-107

## Osmanlı ordusunun 315 min əsgərindən 250 mini şəhid oldu






**Türk insanının tarix boyu yazdığı şəhidlik və qəhrəmanlıq dastanlarının bəlkə də ən möhtəşəmi Çanaqqala savaşıdır. Çanaqqala savaşının 107-ci ildönümü bütün türk dünyasında böyük sayğıyla qeyd edilir. NTV.com.tr. Türk Silahlı Qüvvələri və Anadolu Agentliyinin arxivindən türkün yenilməzliyinin rəmzinə çevrilmiş Çanaqqala savaşını əks etdirən arxiv fotolarını və savaşın reallıqlarını paylaşıb.**

"Şərq" Çanaqqala və tarix boyu Vətən, torpaq uğrunda şəhid olanların ruhuna dərin hörmətlə həmin materialı oxuculara təqdim edir. Birinci Dünya müharibəsində Antantaya qarşı cəbhədə yer alan Osmanlı imperiyası 107 il öncə dünyanın ən güclü donanmalarının yolunu kəsərək ağır məğlubiyyətə uğratdı, bununla da "türklər əyilməz, Çanaqqala keçilməz" dastanını yazdı. Bu dastan minlərlə türk insanının qanı ilə yazıldı. Çanaqqala dünya hərb tarixində ən çətin döyüşlərdən biri hesab edilir. Bu döyüşdə bütün tərəflər ümumilikdə 500 mindən artıq itki verib. Çanaqqala həm qalib, həm də məğlublar üçün çox baha başa gəldi. Hücuma keçən tərəf 490 min əsgəri qüvvənin 300 mindən çoxunu itirdi. Osmanlı ordusunun 315 min əsgərindən 250 mini şəhid oldu. Ümumilikdə bu döyüşdə iştirak edənlərin yarım milyondan çoxu məhz gənclər, yeniyetmələr idi. "Bığ yeri yeni tərləyən", əli xınalı, analarının Vətənə qurban dediyi yeniyetmələr Çanaqqalada dünya durduqca unudulmayacaq dastan yazdılar. Ruhları qarşısında hörmətlə baş əyirik!

**Məlahət Rzayeva**